**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2023-cü il ərzində beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlər barədə**

**H E S A B A T**

2023-cü il ərzində Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq sənədlərinin razılaşdırılması, beynəlxalq və regional iqtisadi təşkilatlarla əlaqələr, beynəlxalq təcrübənin təşviqi sahəsində müvafiq işlər həyata keçirilmişdir.

"Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq haqqında Saziş" 05.04.2023-cü il tarixində Düşənbə şəhərində Azərbaycan Respublikasının iqtisadiyyat naziri və Tacikistan Respublikasının xarici işlər naziri tərəfindən imzalanmışdır.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Gürcüstanın Ədliyyə Nazirliyi arasında Daşınmaz əmlak hüquqlarının qeydiyyatı və kadastr fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Memorandum" Tbilisi şəhərində 02.06.2023-cü il tarixində müvafiq qurumların rəhbərləri tərəfindən imzalanmışdır.

Pakistan tərəfi ilə müzakirə mərhələsində olan "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Özəlləşdirmə Nazirliyi arasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun layihəsinə münasibət bildirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Hökuməti ilə Malayziya Hökuməti, Yaponiya Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş layihələrinə, eləcə də 'Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı tərəfindən təklif edilən "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" layihəsinə, Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında turizm əməkdaşlığı Sazişi"nin layihəsinə münasibət bildirilmişdir.

Özbəkistan Respublikasının Dövlət Vergi Komitəsi yanında Kadastr Agentliyi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti arasında torpaq idarəçiliyi, torpaqların rəsmiləşdirilməsi, torpaq idarəçiliyində informasiya sistemləri, ölkə daxilində vətəndaşlara xidmətlərin göstərilməsi, eləcə də torpaq idarəçiliyi ilə bağlı dövlət xidmətləri sahələrində əməkdaşlığın inkişaf etdirilməsi və təcrübə mübadiləsinin həyata keçirilməsi ilə bağlı sözügedən qurumlar arasında yaradılmış İşçi qrupun üzvlərinin, eləcə də 4MAPS şirkətinin Azərbaycandakı nümayəndələrinin iştirakı ilə 08 və 22 iyun tarixlərində onlayn görüşlər keçirilmişdir. Görüşlərdə Azərbaycan və Özbəkistan mütəxəssisləri tərəfindən daşınmaz əmlakın dövlət qeydiyyatı və kadastrı sahəsində tətbiq olunan proqram təminatları və informasiya sistemləri barədə məlumat verilmişdir.

Cari ilin yanvar ayında Litvanın Dövlət Müəssisəsinin Reyestrlər Mərkəzi ilə daşınmaz əmlakların kütləvi qiymətləndirilməsinin aparılmasına dair məlumat mübadiləsi aparılmış və müvafiq suallar qarşı tərəfə göndərilmişdir. Litvanın daşınmaz əmlakların kütləvi qiymətləndirilməsi sahəsində təcrübəsini öyrənmək məqsədilə ƏMDX əməkdaşları 23-27 oktyabr 2023-cü il tarixində Litva Respublikasının Vilnüs şəhərində səfərdə olmuşlar və səfər zamanı Mərkəzin əsas fəaliyyət istiqaməti olan kadastr, reyestr

və kütləvi qiymətləndirmə sistemləri ilə tanışlıq, habelə torpaq sahələrinin və binaların qiymətləndirilməsi proseduru ilə bağlı təlimlərdə iştirak etmişlər.

22.02.2007-ci ildə Bakı şəhərində imzalanmış Moldova Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş çərçivəsində təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə Moldova Respublikasına cari ilin iyul ayında səfər olunmuşdur.

Eyni zamanda, Azərbaycan Respublikası ilə Türkiyə, Serbiya, Moldova, Litva, Özbəkistan, Qazaxıstan arasında Hökumətlərarası Komissiyaların iclas Protokollarının icra vəziyyəti barədə müvafiq məlumatlar, eləcə də Tatarıstan, İsrail, İran, Serbiya, Tacikistan, Sankt-Peterburq ilə birgə Komissiyaların iclas protokollarının layihələrinə münasibət bildirilmişdir.

Azərbaycan Respublikası Hökumət ilə Səudiyyə Ərəbistanı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın iclas Protokoluna, Qırğız Respublikası və Azərbaycan Respublikası arasında iqtisadi və humanitar əməkdaşlıq üzrə hökumətlərarası Komissiyanın beşinci iclasının protokoluna, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının iclas protokoluna münasibət bildirilmiş və məlumatlar hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

MDB üzv dövlətlərinin geodeziya, xəritəçəkmə, kadastr və Yerin məsafədən zondla tədqiq edilməsi üzrə Dövlətlərarası Şurasının 4-6 oktyabr 2023-cü il tarixlərində Belarusun Vitebsk şəhərində 45-ci sessiyası keçirilmişdir. Sessiyada Xidmət əməkdaşları onlayn qaydada iştirak etmişdir.

23.05.2023-cü il tarixində "Dövlət əmlakının idarə olunması və özəlləşdirilməsinə məsləhət xidməti" texniki yardım layihəsi çərçivəsində Xidmət əməkdaşları, GIZ nümayəndələri və "Berlin Economics"in mütəxəssisləri arasında onlayn görüş keçirilmiş və hazırki vəziyyət, eləcə də əməkdaşlığın növbəti perspektivləri müzakirə edilmişdir.

GIZ-lə əməkdaşlıq çərçivəsində Federal Daşınmaz Əmlak Agentliyinin (Bundesanstalt für Immobilienaufgaben (BImA)) vəzifələri üzrə ekspert mübadiləsi, texniki-iqtisadi əsaslandırma nümunələri və Dövlət-özəl tərəfdaşlığın təşviqi üçün təlimatlar mövzularında təlim dəstəyinin keçirilməsi barədə qarşı tərəflə əldə edilmiş razılığa əsasən 18.07.2023-cü il tarixində Xidmət əməkdaşları üçün "Dövlət-özəl tərəfdaşlığının təşviqi" mövzusunda onlayn təlim keçirilmişdir.

10-19 oktyabr 2023-cü il tarixlərində Dünya Bankının missiyasının Azərbaycana səfəri çərçivəsində 18 oktyabr 2023-cü il tarixində Əmlak Məsələləri Dövlət Xidmətində sözügedən nümayəndə heyəti ilə görüş keçirilmişdir.

11-12 oktyabr 2023-cü il tarixlərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Əmlak Məsələləri Dövlət Xidmətində sözügedən nümayəndə heyəti ilə görüş keçirilmişdir.

13 noyabr 2023-cü il tarixində Brüssel şəhərində Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında Əməkdaşlıq Komitəsinin 18-ci iclası çərçivəsində müvafiq məlumatlar yenilənmişdir.

Xarici diplomatik missiyalara təqdim edilməsi məqsədilə hesabat dövrü ərzində iqtisadi sahədə həyata keçirilən islahatlar, o cümlədən iqtisadi siyasətdə və qanunvericilikdə baş verən yeniliklərlə (dəyişikliklərlə) bağlı məlumatlar mütəmadi olaraq qarşı tərəfə təqdim edilmişdir.

Xidmətin struktur bölmələri, Xidmətin strukturuna daxil olan və tabeliyindəki qurumlar tərəfindən həyata keçirilən fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə ehtiyac duyulan məsələlərlə bağlı xarici təcrübənin öyrənilməsi üzrə lazımı işlər həyata keçirilmiş və hazırlanmış məlumatlar istifadə üçün verilmişdir.